# Səmanın xəyal dünyası



Azərbaycanda istedadlı uşaqlar çoxdur. Onlar öz uğurları ilə həmişə vətənimizə şərəf, qürur, şöhrət gətirirlər. Belə uşaqlardan biri də Səma Süleymanovadır. O, 2010-cu ilin 9 avqust tarixində Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Balaca Səma fərdi yaradıcılıq işinə 3-4 yaşından izlədiyi cizgi filmi qəhrəmanlarının şəkillərini müstəqil şəkildə çəkməklə başlayıb. 2015-ci ildən Bakı şəhərində M.Rahim adına 7 nömrəli tam orta məktəbdə ilk ibtidai təhsilini almağa başlayıb. Səmada fərqli yaradıcılıq qabiliyyətini hiss edən anası onu 7 yaşında Bakı şəhəri 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi dərnəyinə qoyur. Bir il yarım həmin dərnəyin müəllimi Elanura Mənsimovadan rəssamlıq dərslərinin sirlərini öyrənməyə başlayır. Dərnəyə getdiyi qısa vaxt ərzində balaca Səma həm respublika, həm də beynəlxalq səviyyədə keçirilən sərgilərdə fəal iştirak edir, dəfələrlə diplom və sertifikatlarla təltif olunur.

Səmanın rəsm əsərlərinə nəzər saldıqda ən çox müraciət etdiyi rənglər arasında mavi, tünd göy, qara, qırmızı, sarı tonların daha çox istifadəsinin şahidi olmaq mümkündür. Həmçinin, sadə karandaşla ağ-qara estetikalı müxtəlif qrafik rəsmlər çəkməyi də xoşlayır. Əsasən istifadə etdiyi texniki vasitələr quaş, rəngli qələmlər, rəngli karandaşlar, sadə karandaş, müxtəlif cür konturlar, akvareldir. Onun rəsm əsərlərinin mövzu dairəsi olduqca müxtəlifdir. Belə ki, tarixi mövzular, peyzaj, fauna və flora aləmi, dəniz, vətənpərvərlik, milli adət-ənənələr, Qanlı Yanvar, Dəmir yumruq, Azərbaycan əsgəri, Qarabağ müharibəsi, Vətənim Azərbaycan, koronavirus və s. kimi mövzular Səmanın elə ilk yaradıcılıq nümunələrində xüsusi yer tutur.

Səmanın çəkdiyi rəsmlərə nəzər saldıqda onun öz xəyal dünyasına məxsus fərdi cizgilərinin şahidi oluruq. "Çəkəcəyim əsərin quruluşu, forması əvvəlcə öz xəyalımda canlanır, hətta təxmini hazır olur. Sonra fikrimdəki həmin rəsmi elə orda gördüyüm kimi çəkməyə başlayıram".

Səma istedadlı olmaqla yanaşı, həm də zəhmətkeşdir. O, öz yaradıcılığına həvəs və sevgi ilə yanaşır. Dərslərindən vaxt tapan kimi rəsm çəkməyə başlayır və əlinə aldığı əsərini bacardığı qədər vaxtında tamamlamağa çalışır. Onun rəsm əsərləri öz məktəbinin böyük bir divarında bu gün də sərgilənir. Dəfələrlə məktəb tərəfindən təşkil edilmiş "Ayın rəssamı" layihəsinin qalibi olub, diplom və sertifikatlarla təltif edilib. Həmçinin, məktəbin divarından asılan Şərəf lövhəsinin həm "Yaradıcı şagirdlər", həm də "Əlaçı şagirdlər" bölməsində Səmanın şəkli öz yerini tutur. Dərs aldığı tədris ocağında bir neçə dəfə "Səmanın xəyal dünyası" adlı sərgisi məktəb tərəfindən təşkil olunub.

Səma Süleymanova olduqca vətənpərvər, milli xüsusiyyətlərə malik, vətən təəssübkeşi çəkən bir şagirddir. II Qarabağ müharibəsi zamanı bu balaca rəssam Azərbaycan Ordusuna mənəvi dəstək üçün "Əsgərə məktub" layihəsinə qoşulub. Bundan başqa, "Milli qəhrəman Mübariz İbrahimov", "Qarabağ Azərbaycandır!", "Azərbaycan əsgəri", "Topçu Vüsal" adlı rəsm əsərlərini Müdafiə Nazirliyinə hədiyyə edib və onlardan təşəkkür məktubu alıb. Doğma vətəni öz sehrli rənglər dünyasında əbədiləşdirməyə çalışan Səma Qız qalası, Xudafərin körpüsü, Şuşa qalası və s. kimi tarixi abidələrimizə də tez-tez müraciət edir. Anasına olan sevgidən rəsm əsərlərinə "Ulduz Səma" imzasını qeyd edir.

Səmanın rəssamlıq qabiliyyətindən başqa, özünəməxsus pafosla xüsusi şeir demək istedadı da var. O, məktəb və muzeylərdə təşkil edilən tədbirlərdə həm rəsm əsərləri ilə, həm də qiraətçi kimi də uğurla iştirak edir.

Biz də "Qobustan" Sənət Toplusu olaraq bu istedadlı qıza uğurlar arzulayırıq və inanırıq ki, onun rəsmləri gələcəkdə beynəlxalq sərgilərdə uğurla nümayiş olunacaq.



Rəssam Səma Süleymanova. "Rəngli dünyanın kiçik fraqmentləri"